HAQQIN SÖZÜ-SÖZÜN HAQQI.

# Yeni YOL

31 may 2016-cı il

№010 (24)

yeni_yol@mail.ru | İCTİMAİ QƏZET | “იენი იოლი” საზოგადოებრივი გაზეთი | qəzet 17 iyun 2015-ci ildən nəşr olunur

## 28 MAY AZƏRBAYCANIN DÖVLƏT MÜSTƏQİLLİYİ GÜNÜDÜR




1918-ci il mayın 28-də Azərbaycan Milli Şurası İstiqlal Bəyannaməsi qəbul edərək Azərbaycan xalqının dövlət quruluşunun çoxəsrlik ənənələrini dirçəldərək, Müsəlman Şərqində ilk Respublikanın elan olunduğunu dünyaya bəyan etdi.

Azərbaycan Respublikasının Ali Soveti Azərbaycan Milli Şurasının 1918-ci il mayın 28-də qəbul etdiyi İstiqlal Bəyannaməsinə, Azərbaycan Respublikasının demokratik prinsiplərinin və ənənələrinin varisliyinə əsaslanaraq və "Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpası haqqında" Azərbaycan Respublikası Ali Sovetinin 1991-ci il 30 avqust tarixli Bəyannaməsini rəhbər tutaraq bu Konstitusiya Aktını və müstəqil Azərbaycan Respublikasının dövlət quruluşunun, siyasi və iqtisadi quruluşunun əsaslarını təsis edir.

1991-ci il Oktyabrın 18-i isə Azərbaycanın dövlət müstəqilliyi haqqında Konstitusiya Aktının qəbul olunduğu gündür. Beləliklə, 1991-ci ilin bu günü Azərbaycan Respublikası 1918-1920-ci illər Azərbaycan Xalq Cümhuriyyətinin davamçısı, varisi elan olundu. Ötən əsrin əvvəllərində cəmi 23 ay müstəqil olan Azərbaycan yenidən azadlığa qovuşdu.

Bütün təbii sərvətlərin xalqa mənsubluğu haqda qərar qəbul edildi. Daha sonra himnimiz, gerbimiz və dövlət bayrağımız qəbul olundu. Elə həmin aktdan bəri Azərbaycan bütün sahələrdə beynəlxalq sazişlərə imza atmağa başladı, müstəqil inkişaf yoluna qədəm qoydu. Konstitusiya aktı həm də siyasi və iqtisadi münasibətlərin yeni fundamental prinsiplərini müəyyən etdi.

## GÜRCÜSTANININ DÖVLƏT MÜSTƏQİLLİYİNİN BƏRPA OLUNMASINDAN 25 İL KEÇİR




Mayın 26-sında Gürcüstan müstəqillik elan olunmasının 25 illiyini qeyd etdi. Bu ölkənin ən əsas bayramıdır. Bu bayram milliyyətindən, sosial və partiya mənsubiyyətindən, həyat tərzindən asılı olmayaraq bütün ölkə əhalisini birləşdirir.

Ənənəvi olaraq Müstəqillik bayramının mərkəzi paytaxt Tbilisidir . Məhz 1989-cu ildə Tbilisidə prospekt Rustavelidə və Azadlıq meydanında müstəqillik uğrunda mübarizə başlamışdı. Gürcüstanın dövlət müstəqilliyi məsələsi 1991-ci ilin 31 martında keçirilən ümumxalq referendumu ilə təsdiqləndi və həmin ilin 9 aprelində Gürcüstan Ali Soveti referendumun nəticələri əsasında Rustaveli prospektində yerləşən parlament binasında Gürcüstanın dövlət müstəqilliyinin bərpa olunması haqqında Akt qəbul etdi.

26 may tarixi əhəmiyyətə malik bir gündür. 1918-ci ilin məhz bu günündə Noe Jordaniyanın başçılığı ilə Gürcüstanın demokratik hökuməti ölkənin müstəqilliyini elan etmişdi. Birinci müstəqil respublika qısa ömür sürsə də, ölkədə bu tarixi hadisəni hamı indiyədək vətənin şanlı səhifələrindən biri kimi xatırlayır.

## TÜRKİYƏ PREZİDENTİ GÜRCÜSTANIN NATO-YA DAXİL OLMASINI DƏSTƏKLƏDİ

Gürcüstan prezidenti Georgi Marqvelaşvili Ümumdünya humanitar sammiti çərçivəsində Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğanla görüşüb.Tərəflər iki ölkə arasında siyasi, iqtisadi və mədəni əlaqələri müzakirə ediblər.

Türkiyə prezidenti bir daha Gürcüstanın ərazi bütövlüyünü və suverenliyini dəstəklədiyini qeyd edib. Tərəflər görüşdə NATO-nun Varşavada keçirilməsi planlaşdırılan sammitini də nəzərdən keçiriblər.

Gürcüstan prezident administrasiyasının rəhbəri Georgi Abaşişvili bu görüşü belə şərh edib: “Görüşdə Türkiyə prezidenti qeyd edib ki, Gürcüstan mütləq NATO-nun üzvü olmalıdır. Söhbətdə hər iki ölkənin tərəfdaşı olan Azərbaycanla birgə həyata keçirilən vacib strateji layihələrdən də bəhs olunub. Bakı-Tbilisi-Qars dəmir yolu magestralı da müzakirə mövzusu olub və cənab Ərdoğan bu layihənin cari ildə başa çatacağına çox böyük ümid bəslədiyini vurğulayıb. ”.

Görüşdə Gürcüstan Milli təhlükəsizlik şurasının katibi İrina İmerişvili və Gürcüstanın Türkiyədəki səfiri İrakli Koplatadze də iştirak ediblər.

## PREZİDENT PARLAMENTİN TƏLƏSİK PAYTAXTA KÖÇÜRÜLMƏSİNİN ƏLEYHİNƏDİR



Prezident Georgi Marqvelaşvili Kutaisidə Akaki Sereteli adına Dövlət universietinin tələbələri ilə görüşdə Gürcüstan parlamentinin Kutaisiyə köçürülməsinin müəyyən çətinliklər yaratdığını, lakin bu şəhəri indiki mərhələdə parlamentsiz qoymağın düzgün olmadığını söyləyib.

Tbilisidə yaşayan indiki deputatlar Kutaisiyə parlament iclaslarına gedərkən, qarşılaşdıqları narahatlıqlar barədə dəfələrlə danışıblar.

Konstitusiyaya görə, ölkənin parlament paytaxtı Kutaisidir. İclasların və sessiyaların çağırılması üçün parlamentin yerinin müvəqqəti olaraq dəyişdirilməsinə yalnız fövqaladə və hərbi vəziyyət zamanı yol verilir.

Kutaisidə parlament üçün müasir binanın tikilməsi, konstitusiyada dəyişiklik edilməsi və 2012-ci ilin payızında Kutaisiyə köçürülməsi ölkənin üçüncü prezidenti Mixeil Saakaşvilinin təşəbbüsü ilə baş tutub.

2012-ci ildə hakimiyyətə gələn “Gürcü arzusu” koalisiyasının nümayəndələri parlamentin Tbilisiyə qaytarılması məsələsini dəfələrlə gündəmə gətirsələr də, onun həlli üçün konstitusiya çoxluğuna malik deyillər.

## BİNALİ YILDIRIM TÜRKİYƏNİN YENİ BAŞ NAZİRİ OLDU



Türkiyə Böyük Millət Məclisi ölkənin yeni nazirlər kabinetinə və baş nazir Binali Yıldırıma etimad göstərib.

Parlamentin 315 millət vəkli yeni hökumətə etimad göstərsə də, 138 parlament üzvü qərarın əleyhinə səs verib. Ölkə parlamenti hökumətin proqramını da dəstəkləyib.

Binali Yıldırım Türkiyənin iqtidardakı hakim partiyasının təsisçilərindən biridir. Hakim Ədalət və İnkişaf partiyasının sayca üçüncü sədri seçildikdən sonra, onun adı ölkənin baş naziri olaraq gündəmə gəlmişdir.

Xatırladaq ki, Binali Yıldırım hökumət başçısı postunda Əhməd Davudoğlunu əvəz edərək, Türkiyənin 65-ci hökumət kabinetinin rəhbəri olub.

BİZ NİYƏ KASIBIQ SUALINA CAVAB AXTARIŞINDA TAPDIQLARIM 2

PAYLAŞMA MÖVSÜMÜ RAMAZAN 3

BÖYÜK DÖVLƏTLƏRİN MƏKRLİ İKİLİ STANDARTLARI 4

KİTAB FESTİVALI FONUNDA DÜŞÜNCƏLƏR 5

GÜLÜMSƏ QARŞILA AYRILIQLARI... (Rable gülüşü) 6

QƏDİM TİFLİSİN SAZ VƏ SÖZ USTALARI 7

ANAR RAFİQOĞLU YENİ TAMAŞASI İLƏ TAMAŞAÇILAR QARŞISINA ÇIXDI 8

## BİZ NİYƏ KASIBIQ SUALINA CAVAB AXTARIŞINDA TAPDIQLARIM

**Biz niyə kasıbıq? Əgər unutmamısınızsa mən keçən sayımızda “Mənəvi yoxsulluğa aparan yollara ötəri baxış” adlı yazımı da belə bir ritorik sualla başlamışdım. Və bu yazını da sözbəsöz eyni bir sual cümləsi ilə başlamam tərəfimdən hansısa hoqqabazlığın edilməsi kimi anlaşılmamalıdır. Təkrar da olsa sualı bir də səsləndirim: Biz niyə kasıbıq? Əcaba, doğrudan da biz niyə kasıbıq, biz niyə oturub-durub kasıbçılıqdan şikayətlənirik? Kasıb olmamızın bir nədəni yoxmu? Varsa nədir? Bəlkə bizim kasıb olmamızın səbəbi başqalarının əlindədir və ya biz dağa-daşa düşmədən bu səbəb zəhrimarı elə özümüzdə axtaraq? Düzü qoyulan sualların çoxluğu mənim özümü də əndişələndirdi və bu suallara fərli bir cavab verə bilməyəcəyim, cavab tapa bilməyəcəyim qorxusu ilə bir ara bu yazını başlamadan bitirmək, fikrimdən daşınmaq da istədim. Amma bunun da bir çıxış yolu olmadığı düşüncəsilə yazının davamını gətirməyin daha doğru olduğu qənaətilə bilgisayarın düymələrini takkıldatdım. Həm də bunun oxunu atıb, yayını gizlətmək kimi anlaşılacağı əndişəsindən canımı qurtarmaq üçün “çünki oldun dəyirmançı” prinsipi ilə hərəkətin daha düzgün olması fikrini qətiləşdirdim.**

Meydana düşmüşkən yazımı iki hissəli və ya iki seriyalı sənədli film kimi təqdim etməyi də daha doğru hesab edirəm. Nədən ki, belə olduqda oxucunun olanlarımızı üz-üzə qoyaraq bir müqayisə etmək şansı qazanacağını da beynimdən keçirirəm. Yazımın birinci bölümündə toylarımızla bağlı bir-iki fikrimi səsləndirmək, ikincidə isə yaslarımızla ilgili mülahizələrimi ortaya qoymaq niyyətindəyəm. Mənim dediklərimin əksəriyyətin fikri ilə üst-üstə düşməsi sevincinin həzzini indidən hiss edirəm. Amma sonra da düşünürəm ki, nə olsun, mənim söylədiklərimin, elə çoxlarının da dilə gətirdiklərinin nə xeyri? Onsuz da biz sözü ilə əməli bir-birinə tərs gələn toplumuq. Deyirik, di gəl, əməl etmirik. Deyirik belə etmək yaramaz, bir də baxırıq ki, ey dili-qafil, eləmək istəmdiyimiz zəhrimarı artıq eləmişik və indi də altını çəkirik.

İndi filmimizin birinci bölümünə diqqət yetirək və bundan sonra yazacaqlarımı da bu bölümün ssenarisi edək. Toy etmək istəyirik. İki ailəmizin böyüdüb boya-başa çatdırdığı iki gəncimizi nişanlayırıq. İki ailə arasında gediş-gəlişin nə ardı kəsir, nə arası. Bu aparır, o gətirir. Oğlan evinin gətirdiyini qız adamları, qız evinin aldıqlarını oğlan tərəfin qohumları bəyənmirlər, burunlayırlar. Xərc xərcin üstündən gəlir. Hər iki tərəf də soğan qabığı kimi soyulduqca soyulur. Və uzun həngamədən sonra toya başlamağa qərar veririk və görəcəkli günlərimiz də bundan sonra başlayır. Filmdə bura qədər baş verənlər bizim üçün jurnal olur. Birinci bölümün əsas epizodlarında hər şeyin meyarı pul olur. Zurnaçını pulla köpürdürük, müğənnini pulla bəzəyirik, bəylə gəlinin başından pul yağışı yağdırırıq, bəyi-gəlini qızıla-gümüşə bələyirik, ora pul, bura pul və nəhayət toyu öz ağlımızla başa vurub, toydan avazıyırıq. Bir tərəfdə qızın ailəsi bir ətək borcla düşür qırx arşın quyunun dibinə, bir tərəfdə də oğlanın ailəsi. Bundan sonra ha çabalasın, ha çarpışsın, görək o quyudan çıxa biləcəkmi. Təsəllimizsə o olur ki, borc gedər, gəlin qalar. Bərəkallah, belə düşüncəyə, belə məntiqə. Əsil fəlsəfədir. Əstəğvürüllah, mən də deyəsən, bu məqamda bala-bala ssenaridən kənara çıxıram.

İndi də filmin ikinci – ağlamalı bölümünə keçid alaq. Deyək ki, nənəmizdən, babamızdan biri can üstədir və ya başqa cür desək Allahın əmrini bitirmək üzrədir. Hamı da bilir ki, onun sayılı günləri, bəlkə də sayılı saatları qalıb. Haqqın dərgahına yolçu olmaqdan onu qısa zaman kəsiyi ayırır. Hamı əl-ayağa düşüb bir-birinə dəyir. Hələ biçarənin canı ağzından çıxmamış başlayırıq onun üçünün, yeddisinin, qırxının, əlli ikisinin, ilinin dərdini çəkməyə. Az qala cümə axşamlarını, başqa sözlə adna axşamlarını unutmuşdum. Biçarə adamımız canını tapşırandan sonra, elə bil onun son nəfəsini gözləyirmişik, bir əl-ayaq da satın alıb, başlayırıq pulu sağa-sola xərcləməyə.

Camaat bizə nə deyər, el-oba bizi qınayar düşüncəsiylə ölmüş adamımıza bir məzar daşı sifariş veririk, sonra da daş düzəldən ustaya vermək üçün pul tapmırıq. Ya sonra verərik deyib gətiririk, ya da borc alıb şəkilli-məkilli o daşı yaraşdırırıq ölünün qəbrinin üstünə. Xalqdan ayıbdır məntiqi ilə bir il ərzində az qala minlərlə adama ehsanı ehsan dalınca düzüb qonaqlıq veririk.

İnanmıram ki, sözümdə bir damcı yalan-yanlış olduğunu və ya nəsə bir saxtakarlığa yol verdiyimi bir adam təkzib edə bilsin, əməlli-başlı bir dəlil gətirib məni susdursun. Bu məqamda adətlərimizi belə deqradasiyaya uğratdığımız üçün fərasətimizə ürəkdən bir “molodes” guppuldatmaq istəyirdim , amma qorxdum yenə də məni ssenaridən kənara çıxmaqda suçlasınlar. Və o üzdən də son məqamda dilimi zorla da olsa dişimlə sıxdım.

**…Artıq proloqda verilən bəlağətli sualların müəyyən qədər cavablandığına ümid edə bilər(ik)əm. Epiloqda onu da vurğulayım ki, dədə-babalarımız bizə “kasıb çıxacağını bilsəydi, geydiyi atlas olardı” kimi müdrik bir kəlam qoyub gediblər. Rəhmətliklər onu da deməyi unutmayıblar ki, “kasıb xeyri gələn yerə papağını dürtər”. İndi özünüz bilin və ya özümüz bilək. Seçim bizimdir: ya gərək məişət mərasimlərimizə yenidən göz gəzdirək, ya da elə kasıbçılıqdan şikayət edə-edə borc altında inləyək.**

Afiq MUXTAROĞLU

## BGMİ-NİN QADINLAR ŞURASININ NÖVBƏTİ SEMİNARI KEÇİRİLİB

21 may tarixində Gürcüstan Gənclərinə Yardım və Maarifləndirmə Təşkilatının konfrans zalında "25-ci kadr və onun həyatımıza mənfi təsirləri" mövzusunda seminar keçirilib.

Seminarın aparıcısı Bütün Gürcüstan Müsəlmanları İdarəsinin qadınlar şurasının sədri Lamiyə Hacıyeva öncə Gürcüstanda yaşayan və eləcə də bütün dünya müsəlmanlarının Bərat Qəndilini təbrik edib. Daha sonra isə 25-ci kadr haqqında seminar iştirakçılarını məlumatlandıraraq, mövzu ilə əlaqəli slaydları onlara təqdim etməklə onun insanlar üçün nə qədər təhlükəli olması barədə təsəvvür yaratmağa çalışıb.



Onu da qeyd edək ki, 25-ci kadr bəşəriyyətin gələcəyini təhdid altına alan və insanın şüuraltına yerdilən təcavükar bir layihədir. Bu layihənin məqsədi isə İslam əxlaqı ilə uyğun olmayan qeyri-əxlaqi görüşləri yaymaqdır.

Tədbir daha sonra seminar iştirakçıları üçün təşkil olunmuş çay süfrəsi arxasında davam etdirilib.

## TİKA QARDABANİ BƏLƏDİYYƏSİNƏ HƏDİYYƏLƏR VERİB



Mayın 18-də Türkiyənin beynəlxalq əməkdaşlıq və koordinasiya agentliyinin (TİKA) Tbilisi ofisinin koordinatoru Mustafa Korkmaz, onun müavini Eka Janelidze, Rəşid Bolkvadze, Gürcüstanın işğal olunmuş ərazilərdən məcburi köçkünlər və qaçqınlar nazirinin müavini Qoqi Paçaçia Qardabani bələdiyyəsinin qonağı olublar.

Qonaqları Qardabani bələdiyyəsinin sədri Qoça Jamarauli və onun yardımçıları Zviad Maçabeli, İrakli Geladze, Dünyamalı Hacıyev qarşılayıblar. Sözügedən səfər xeyriyyə məqsədi daşıyıb. Belə ki, TİKA nümayəndələri Qardabani bələdiyyəsinə Vaziani mini ayaqqabı fabrikində hazırlanan 350 cüt qadın və kişi ayaqqabısı hədiyyə ediblər. Bu ayaqqabılar bölgədə yaşayan sosial müdafiəsi zəif olan ailələrə verilmək üçün nəzərdə tutulub. TİKA-nın Tbilisi ofisinin koordinatoru Mustafa Korkmaz bir cüt ayaqqabını isə rəmzi olaraq bələdiyyə sədri Qoça Camarauliyə hədiyyə edib.

## TBİLİSİ DÖVLƏT UNİVERSİTETİNDƏ BAYRAM TƏDBİRİ KEÇİRİLDİ

Mayın 27-də İvane Cavaxişvili adına Tbilisi Dövlət Universitetində 28 May Azərbaycanın Respublika Günü və 26 May Gürcüstanın Müstəqillik Günü münasibətilə konsert keçirilib. Azərbaycanın Gürcüstandakı səfirliyinin təşəbbüsü ilə və universitetin nəzdində fəaliyyət göstərən Heydər Əliyev adına Dostluq Klubu və Tbilisidəki “Ceyran” rəqs qrupu tərəfindən birgə təşkil olunan tədbirdə ali təhsil ocağının professor və müəllimləri, azərbaycanlı və gürcü tələbələr, ictimaiyyət nümayəndələri iştirak ediblər.

Tbilisidəki 64 saylı məktəbdə fəaliyyət göstərən “Ceyran” rəqs qrupunun üzvləri Azərbaycan və gürcü xalq rəqslərini ifa ediblər. Xalq və bəstəkar mahnılarından ibarət konsert proqramı



ilə çıxış edən azərbaycanlı incəsənət ustalarının konsert proqramını tədbirə qatılanlar böyük maraqla qarşılayıblar.

## QARDABANİDƏ MÜLKİ TƏHSİL OLİMPİYADASI KEÇİRİLİB

Gürcüstan Azərbaycanlı Hüquqşünaslar Assosiyasiyasının təşkilatçılığı və Qardabani bələdiyyəsi Kosalı ictimai məktəbinin dəstəyi ilə Qardabanidə azərbaycandilli məktəblərin şagirdləri arasında mülki təhsil olimpiyadası keçirilib. Olimpiyadada 9, 10 və 11-ci sinif şagirdləri iştirak ediblər.

Birinci yerə Nəzərli ictimai məktəbinin şagirdi Aygün Ömərova, ikinci və üçüncü yerlərə yenə də həmin məktəbin şagirdləri Süleyman Allahverdiyev və Həqiqət Yolçuyeva çıxıblar. Dördüncü yerə Kosalı ictimai məktəbinin şagirdi Nuranə Məmmədova, beşinci yerə isə Qardabani şəhər 3 nömrəli məktəbin şagirdi Sənəm Yusifova layiq görülüb.

Olimpiyadanın 8 ən yaxşı iştirakçısına Gürcüstan Azərbaycanlı Hüquqşünaslar Assosiyasiyasının sertifikatları təqdim edilib.

## GÜRCÜSTANDA KONTRAKT ƏSASINDA HƏRBİ XİDMƏTƏ QƏBUL BAŞLADI

Mayın 31-indən Gürcüstan müdafiə nazirliyi vətəndaşları Silahlı qüvvələrə dəvət edir və kontrakt əsasında hərbi xidmət keçməyi təklif edir.

Müdafiə nazirliyinin məlumatına görə, kontrakt əsasında hərbi xidmətə 4 illik müqavilə ilə 18-35 yaşlı çağırışçılar və artıq hərbi mükəlləfiyyət və ya kontrakt əsasında hərbi xidmət keçmiş şəxslər qəbul edilirlər.

Müdafiə nazirliyində bildiriblər: “Dörd il boyunca hərbi qulluqçular 950 lari həcmində yüksək əməkhaqqı alacaqlar. Hərbi kontrakt əsasında xidmətdə olan şəxslərin əməkhaqqı rütbə, vəzifə və staja uyğun olaraq artacaq. Onlar müasir təchizat, yüksəkkeyfiyyətli pulsuz tibbi xidmət, habelə bütün ailə üzvləri üçün sosial və hüquqi müdafiə ilə təmin olunacaqlar”.

# PAYLAŞMA MÖVSÜMÜ RAMAZAN

***İradələri mərhəmətlə tərbiyə edən və azadlıq bəxş edən oruc ibadətinin yerinə yetirildiyi universal mesajı anlamaq və uyğulamaq üçün Qurani Kərimin daha çox oxunduğu, insani və əxlaqi ərdəmlərin daha güclü bir şəkildə həyatda əks olunduğu, ictimai yardımlaşmanın və paylaşmanın artdığı, birlik və bərabərlik ruhunun canlandığı müstəsna bir zaman dilimi olan ramazan ayına çatmanın həzzini yaşayırıq.***

Maddi və mənəvi saysız-hesabsız gözəlliklərin yaşandığı ramazan ayı, köhnəlməz öyüd və dəvəti ilə hər zaman insanlığı aydınladan, rəhbərliyi ilə insanlığı xoşbəxtliyə və hüzura aparan, daşıdığı dəyər və mənalar, gətirdiyi əxlaq və ərdəm qanunları ilə daim təzə və yeni qalan Quranın endirildiyi bir aydır.

Ramazan, İslamın rəhmətlə yoğurulmuş ədalətini, bilik və hikmətlə bütünləşmiş əxlaqını bütün insanlığa göstərən Allah Rəsulunun, "İnanaraq və qarşılığını tək olan Allahdan ümid edərək ramazan orucunu tutan adamın keçmiş günahları bağışlanar" müjdəsinin reallaşacağı rəhmət və bağışlanma ayıdır.

Ramazan, dünyanın saysız nemətləri içində Allahın lütfünə məzhər olan insanın müəyyən bir müddət ərzində bunlardan, yəni bu nemətlərdən özünü uzaq tutaraq, bir mənada nemətin qədrini daha yaxşı bildiyi, nemətə əli çatmayan insanların halını anladığı və paylaşmağı öyrəndiyi oruc ayıdır.

Başdan sona qədər bir bolluq, rəhmət və bərəkət mövsümü olan bu günlərdə iradələri gücləndirən oruc comərdliyi, ikramı və paylaşmağı öyrədən iftar, ibadətin sevinc və coşqusunu bütün cəmiyyətə yayan



təravih, xeyir və bərəkətin nə olduğunu göstərən sahur, bütün bu yüksək dəyərlərin mənəvi dünyamızı əhatə etdiyi Qədir Gecəsi, ağıl və könülləri mənəvi bir atmosferdə zirvəyə daşıyan və dini duyğunun kollektiv olaraq paylaşılmasını təmin edən Quran xətmi və qarşılıqlı Quran oxumalar, cəmiyyətin ictimai yaralarını sarıyan zəkat və fitrələr, cəmiyyətin birlik və bərabərliyini gücləndirən bayram ilə ramazan ayı fərdi həyatda dindarlığın, ictimai həyatda həmrəylik və qaynaşmanın sıx olaraq yaşanmasına və müsəlmanlar olaraq təmizlənmə və yenilənmə şüurumuzun təzələnilməsinə vəsilə olur.

Əsrlərdir din ilə bağlılığını davam etdirən və onu həyatına rəhbər edən millətimizin övladları ramazan ayının sağlamlığını, insanlığı xoşbəxtliyə çatdıran mənəvi atmosferini nəfslərində, ailə və cəmiyyətdə yaşamış və yaşatmış, sevinclərini və kədərlərini birlikdə paylaşmış, süfrələrini və könüllərini möhtaclara açmış, ramazan ayını yalnız dini deyil, ictimai və mədəni həyatları üçün də canlı bir dövr halına gətirmişlər.

***Fərd və cəmiyyət olaraq mərhəmətə, sevgiyə, hörmətə və bir-birimizi anlamağa möhtac olduğumuz indiki vaxtda, ramazan ayının insanların tək öz dünyalarında, öz xanələrində, öz süfrələrində yaşadıqları bir sevinc olaraq qalmaması, gözəlliklərin yoxsullarla, yetimlərlə, kimsəsizlərlə və qəlbi qırıq insanlarla paylaşıldığı bir ay olması diləyi ilə ramazan ayınızı təbrik edir, ölkəmiz və bütün insanlıq üçün xeyirlər gətirməsini Uca Allahdan niyaz edirəm.***

Hacı BƏKİROĞLU

## YENİ DOĞULANLARA DOĞUM HAQQINDA YUBİLEY ŞƏHADƏTNAMƏSİ VERİLİB

Gürcüstan ədliyyə nazirliyinin qərarı ilə mayın 26-sında ölkəmizdə hər yeni doğulan uşağa Gürcüstanın Dövlət müstəqilliyinin bərpa olunmasının 25 illik yubileyi münasibətilə xüsusi buraxılan doğum haqqında şəhadətnamə verilib.

Ədliyyə naziri Tea Sulukiani mayın 25-də keçirdiyi mətbuat konfransında qeyd edib ki, doğum haqqında şəhadətnamənin üzərində xüsusi – "Gürcüstanın müstəqilliyinin bərpa olunmasının 25 illik yubileyi günündə doğulan Gürcüstan vətəndaşı" sözləri əlavə olunub.

Müvafiq şəhadətnamə bütün Gürcüstan üzrə 26 may tarixində doğulan uşaqların valideynlərinə veriləcək.

## BATUMİDƏ DÜNYANIN ƏN BÖYÜK MEHMANXANALARINDAN BİRİ TİKİLƏCƏK



Batumidə dünyanın ən böyük mehmanxana komplekslərindən biri olan Twin Tower oteli inşa olunacaq. İki 45 mərtəbəli korpusda 4500 nömrə yerləşəcək. Bu isə nömrələrinin sayına görə dünyada mövcud olan belə mehmanxanalardan altıncısı deməkdir.

Kompleksin inşası iyunda başlayacaq və 19 aydan sonra başa çatacaq. Gürcüstanın ORBI GROUP şirkətinin həyata keçirdiyi layihənin investisiya dəyəri 120 milyon dollar təşkil edir. Bu barədə Acara hökuməti məlumat yayıb.

Mehmanxana kompleksinin tikintisində 1500 nəfər, kompleks istismara verildikdən sonra isə 3000 min yerli sakin işlə təmin olunacaq.

Twin Tower-in ərazisində restoranlar, kafelər, ticarət-əyləncə mərkəzləri, qapalı və açıq hovuzlar, idman-sağlamlıq obyektləri, terraslar, spa-salonları, uşaq meydançaları, konferens-zallar, avtomobil dayanacaqları fəaliyyət göstərəcək.

## GÜRCÜSTAN İQTİSADİ AZADLIQ İNDEKSİNDƏ 23-CÜDÜR

2016-cı ilin iqtisadi azadlıq indeksinin nəticələri bəlli olub. 178 ölkə arasında Gürcüstan 23-cü yeri tutmaqla postsovet ölkələrini, Şərqi Avropa ölkələrinin bir hissəsini və qonşu ölkələri qabaqlayıb.

Lakin müsbət göstəricilərə baxmayaraq, Gürcüstanda maliyyə və qanunun aliliyi sahəsində çatışmazlıqların qaldığı da qeyd olunub.

İDİF təşkilatı nəticələri diqqətlə araşdıraraq, bu mövzuya dair hesabat dərc edib. Xatırladaq ki, indeks hər il 10 kəmiyyət və keyfiyyət parametri üzrə 178 ölkənin iqtisadi azadlıq dərəcəsini müəyyənləşdirir. 10 parametrə isə 4 əsas kateqoriya – qanunun aliliyi , hökumətin miqyası, tənzimləmənin effektivliyi və bazarın açıqlığı daxildir.

## ÖLKƏMİZDƏ İSTEHSAL OLUNAN TELEVİZORLAR İYUNDA SATIŞA ÇIXARILACAQ

Gürcüstan bazarında iyun ayından yerli istehsal məhsulu olan ilk televizorlar satışa çıxarılacaq.

Televizorları Rustavidə yerləşən Azərbaycan-Gürcüstan Telekom zavodu istehsal edir.

Zavodun direktoru Mixail Qlonti bildirib: "Biz çox yüksək keyfiyyətli məhsul buraxırıq, onu aşağı keyfiyyətli və ucuz məhsullarla müqayisə etmək niyyətində deyilik. Əgər müqayisə etmək istəyirsinizsə, onda Samsungla müqayisə edin".

Birinci mərhələdə artıq 1200 televizor hazırlanıb, güman olunur ki, gələcəkdə bu rəqəm artacaq, bu məhsula maraq təkcə Gürcüstanda deyil, xaricdə də böyükdür.

M. Qlonti qeyd edib: "Televizorlarımız ixrac olunacaq, ilk növbədə də Azərbaycana. Latviya ilə də danışıqlar gedir. Evro-1 sertifikatı aldıqdan sonra, məhsullarımızı Avropaya da çıxara biləcəyik".

Direktorun sözlərinə görə, AG Telekom gələcəkdə mobil telefonlar istehsal etməyi də planlaşdırır.



Şirkətdən verilən məlumata görə, yerli televizorlar eyni keyfiyyətli xarici analoqlardan ucuz olacaq. 32 düym televizorların 180 dollara, 40 düym televizorların isə 280 dollara satılması nəzərdə tutulur.

## GÜRCÜSTANDA TEXNOLOGİYA İNSTİTUTU AÇILIR

Gürcüstanda İtaliya, İsveçrə, Yaponiya və Avstriyadan sonra dünyada böyüklüyünə görə beşinci olan texnologiya institutu fəaliyyət göstərəcək.

Texnologiya institutu yaratmaq təşəbbüsü Gürcüstan hökumətinə aiddir. Layihəni "Kartu" xeyriyyə fondu maliyyələşdirir.

Layihənin təqdimatında Gürcüstanın baş naziri Georgi Kvirikaşvili bildirib: "Texnologiya institutu layihəsinin ölkəmiz üçün çox mühüm əhəmiyyəti var". Təqdimat mərasimində aparıcı alimlər, elmi-tədqiqat institutları və mərkəzlərinin tələbələri, Gürcüstan hökumətinin nümayəndələri və xarici diplomatlar iştirak ediblər.

Fizika, kimiya, biologiya, riyaziyyat, mühəndislik və bilgisayar texnologiyası sahəsində magistr və doktor proqramlarının həyata keçiriləcəyi texnologiya institutunu yaratmaqda məqsəd əsaslı və tətbiqi elmi-tədqiqat komleksi formalaşdırmaqdır.

Texnologiya institutunda ölkənin tədqiqat potensialının inkişafı üçün gərəkli olan müasir elmi-təcrübə bazası yaradılacaq.

## GÜRCÜSTAN RİFAH REYTİNQİNDƏ 80-Cİ YERİ TUTUR

Londonun "Leqatum" institutunun həyata keçirdiyi araşdırmanın nəticələrinə görə, Gürcüstan rifah göstəricisi üzrə 142 ölkə arasında 80-ci yeri tutur.

Reytinqin tərtibatı zamanı mütəxəssislər 89 meyara diqqət yetirirlər. Bu meyarlar iqtisadiyyat, sahibkarlıq üçün şərait, dövlət idarəetməsi, təhsil, səhiyyə, təhlükəsizlik, şəxsi azadlıq və ictimai kapital kimi 8 kateqoriyaya bölünür.

Gürcüstan iqtisadi göstəricilər üzrə 119-cu, sahibkarlıq fəaliyyəti üzrə 71-ci, dövlət idarəetməsi üzrə 43-cü, təhsil üzrə 66-cı, səhiyyə üzrə 82-ci, təhlükəsizlik üzrə 57-ci, şəxsi azadlıq üzrə 72-ci, ictimai kapital üzrə 139-cu pilləni tutur.

Region ölkələrindən Türkiyə, Rusiya, Ukrayna və Azərbaycan Gürcüstandan irəlidədirlər. Ermənistan isə ölkəmizdən geridə qalır.

Rifah səviyyəsinə görə reytinqə Norveç başçılıq edir. Sonrakı yerlərdə İsveçrə, Danimarka, Yeni Zelandiya və İsveç gəlir.

Burundi, Çad, Haiti, Əfqanıstan və Mərkəzi Afrika Respublikası son beşliyi təşkil edir.

# BÖYÜK DÖVLƏTLƏRİN MƏKRLİ İKİLİ STANDARTLARI

***Müasir dünya siyasətində adından söz etdirən aparıcı dövlətlər özlərinin hegemoniya eyforiyasına qapılaraq diplomatik arenada "ikili standart" deyilən siyasət sərgiləməkdədirlər. Riyazi leksikonla ifadə etsək, bu yanaşmalara bəzən ədədi artım prinsipi də tətbiq edilərək, üçlü-dördlü standartlar da müşahidə edilir. Şübhəsiz ki, hər bir dövlətin, o cümlədən də siyasi arenada çəkisi daha ağır olan ölkələrin strateji maraqlarının mövcudluğunu danmaq qeyri-mümkündür. Lakin, onların da reallaşdırılması müyyən norma və qaydalar çərçivəsində olması danılmazdır. Artıq çoxdandır ki, dünya birliyi tərəfindən qəbul etdilmiş beynəlxalq hüquq normalarının fəaliyyətsizliyi və bu normaların siyası nəhənglərin maraqlarının güdazına qurban getməsi göz qabağındadır.***

Təəssüf hissi ilə qeyd etmək lazımdır ki, ikibaşlı oyunlardan biz də öz nəsibmizi almışıq. "Biz" əvəzliyinin altında ölkəmiz Gürcüstan, milli vətənimiz Azərbaycan, türk dünyasının qəlbi Türkiyə nəzərdə tutulur. Deyilənlərə aydınlıq gətirmək üçün bir neçə məqama toxunmaq kifayətdir.

İlk öncə Gürcüstanın ərazisinin bəlli hissəsi – Abxaziya Muxtar Respublikası və Cənubi Osetiya bölgəsinin aşkaranə şəkildə Rusiya tərəfindən ilhaq edilməsi, sonradan onların qondarma müstəqilliklərinin Kreml tərəfindən "de-yure" tanınması və dünya birliyinin isə baş verənlərə susqun qalması ikili standart siyasətinə bariz nümunədir. Söhbətin mövzusu isə süveren bir dövlətin sərhədlərinin pozulması və zor tətbiq etməklə onun dəyişdirilməsidir.

Anoloji münasibət Bakıya da tətbiq edilməkdədir. Azərbaycan ərazisinin 20%-i Moskvanın havadarlığı ilə Ermənistan tərəfindən işğal edilməsinə sadəcə olaraq seyrçi qalmaq "baş"ının sayı dəqiq bilinməyən çirkli siyasi oyun deyilmi? Dünyada beynəlxalq təhlükəsizlik və sülhün qorunmasında biləvasitə məsuliyyət daşıyan BMT və onun Təhlükəsizlik Şurasının Ermənistan tərəfindən Azərbaycanın işğal edilmiş ərazilərinin qeyd-şərtsiz azad edilməsinə dair qəbul etdiyi çoxsaylı qətnamələrin yalnız kağız üzərində qalması deyilənlərə bir daha əyani nümunədir. Hal-hazırda Türkiyə üzərində çoxgedişli siyasi "rokirovka"lar bu dövlətin "yaxşı" mənada zəifləd ilməsinə, ən acınacaqlı halda isə parçalanmasına hesablanıb. Xarici dairələrin kürd separatçılarını silahla təhciz etməsi isə heç kimə sirr deyil. Bundan başqa, Fransa kimi Avropanın çeşidli ölkələrində, ABŞ-ın bir çox ştatlarında qondarma erməni soyqırımının tanınması Ankaraya siyasi təzyiq kimi qiymətləndirilməlidir. Lakin 1950-ci illərdə məhz Fransa tərəfindən Əlcəzairdə yarım milyondan çox əhalinin qətlə yetirilməsi, 1945-ci ilin avqust ayında ABŞ tərəfindən Yaponiyanın iki şəhərinə – Xirosima və Naqasakiyə ard-arda atom bombalarının atılması nəticəsində 200 mindən çox mülki şəxsin məhv edilməsi hələ də tarixdə layiqli statusunu almayıb. Cari ilin 26 may tarixində Yaponiyada keçirilən „Böyük Yeddilik" (G7) ölkələrinin sammiti çərçivəsində ABŞ prezidenti Barak Obama Xirosima və Naqasaki qurbanları üçün ölkəsi adından üzr istəməyəcəyini rəsmi şəkildə dilə gətirdi. Ancaq hər növbəti prezident seçkisi ərəfəsində "Ağ ev" namizədləri erməni lobbisinin dəstəyini qazanmaq üçün sözdə "erməni genosidi" faktorundan əlavə siyasi dəstək vasitəsi kimi istifadə etməkdən çəkinmirlər. Deməli, burada da qaranlıq məqamlar az deyil.

***Bu gün beynəlxalq terrorizmlə mübarizə bəhanəsi ilə islam dünyasının qan gölünə çevrilməsi bəhs edilən "ikili standart" siyasətindən başqa bir zad deyil. Məhz, bu cür siyasət yürüdən böyük dövlətlər süni surətdə münaqişələr yaradır və sonradan da sanki onun həllinə çalışırlar. Əslində isə bu münaqişələrin pərdəsi arxasında məkirli maraqlar gizlənməkdədir.***

Sahib MUSTAFA

# VATİKANDA MÜSƏLMANLARLA TARİXİ GÖRÜŞ KEÇİRİLİB



Mayın 23-də Vatikanda katolik kilsəsinin başçısı Roma papası Fransisklə "Əl-Əzhər" İslam universitetinin şeyxi Əhməd ət-Təyyib arasında tarixi görüş baş tutub.

On il əvvəl Roma papası XVI Benediktin Məhəmməd peyğəmbər haqqında rəy bildirməsindən sonra Vatikanla Əl-Əhzər arasında münasibətlər kəsilmişdi.

Görüşdə "dünyada sülhün qorunması sahəsində böyük dinlərin liderlərinin və tərəfdarlarının birgə səyi" haqqında söhbət açılıb.

Vatikandan verilən rəsmi məlumatda Vatikanın Apostol sarayındakı qəbulun böyük əhəmiyyəti vurğulanıb. Sənəddə ümumi məqsəd kimi "zorakılıqdan və terrorizmdən imtina edilməsi" qeyd olunub.

Görüşdə dinlərarası dialoq üzrə Papa şurasının prezidenti, fransız kardinalı Jan-Lui Toran da iştirak edib. İmam Əhməd ət-Təyyibi Qahirədə yerləşən Əl-Əzhər universitetinin professor heyəti, eləcə də Misirin Vatikandakı səfiri Hatəm an-Naser müşaiyət edib.

Xatırladaq ki, Əl-Əhzər universitetində 100-dən çox ölkədən gəlmiş tələbələr təhsil alırlar. Hazırkı görüşü şərhçilər dinlərarası dialoq yolunda gərəkli addım kimi dəyərləndiriblər.

# BMT RUSİYANI KRIM TATARLARININ HÜQUQLARINA HÖRMƏT ETMƏYƏ ÇAĞIRDI

Krım tatarlarının kütləvi şəkildə Krımdan deportasiya olunmasının ildönümündə BMT Rusiyanı onların hüquqlarına hörmət etməyə çağırıb.

BMT-nin insan hüquqları üzrə ali komissarı Rupert Kolvill yarımadanın Rusiya tərəfindən ilhaqı nəticəsində Krım tatarlarının təqib olunmasının xeyli artdığını, onların fəallarının hədələnərək, həbs olunduğunu vurğulayıb.

O, mayın 17-də verdiyi bəyanatda deyib: "2014-cü ilin aprelindən Krım tatarları axtarışlara, kitablarının alınmasına və həbslərə məruz qalırlar".

Keçən il hakimiyyət Krım tatarlarının bir sıra KİV-ni, ötən həftə isə Azad Avropa Radiosu/Azad Radio saytını bağlayıb. Kolvill bəyan edib ki, Rusiya azlıqların və yerli xalqların hüquqlarının təmin etməyə dair öhdəlik götürüb, Krım tatarlarının qanunverici orqanı olan Məclisə qoyduğu qadağanı tezliklə ləğv etməlidir.

18 may 1944-cü il tarixindən etibarən 200 minlik Krım tatarı vaqonlara doldurularaq Özbəkistana və SSRİ-nin digər ərazilərinə göndərildi.

Daşınma zamanı onlardan minlərlə adamın həlak olduğu güman edilir. Krım tatarlarına yalnız 1980-ci illərin sonunda evlərinə qayıtmağa icazə verildi.

# RUSİYA TÜRKİYƏYƏ QOYDUĞU QADAĞANI QALDIRDI

Rusiyanın "Rosselxodnadzor" qurumu Türkiyədən kənd təsərrüffatı məhsullarının idxalını qadağan edən qərarı ləğv edib.

Femida.az xəbər verir ki, bu barədə "Rosselxodnadzor"un sədr müavini Yuliya Şvabauskene məlumat verib.

"Bu gün (mayın 16-da – red.) təşkil etdiyimiz toplantıda Türkiyədən idxal olunan bütün kənd təsərrüfatı məhsullarına qadağanın tətbiq edilməsindən imtina etdik. Türkiyədən müsbət cavablar aldığımız üçün hələlik radikal qərar qəbul etmədik. Lakin 19 maydan etibarən zərərverici həşərat səbəbindən balqabağın gətirilməsi qadağan ediləcək. Digər idxal olunan malların isə keyfiyyətinə baxılacaq. Normalara cavab verməsə, geri göndəriləcək", - Şvabauskene bildirib.

# ÇERNOQORİYA NATO-NUN TAMHÜQUQLU ÜZVÜ OLDU

Mayın 19-unda NATO-nun Brüsseldəki mənzil qərargahında Çernoqoriyanın Şimali Atlantika Müqaviləsi Təşkilatına daxil olmasına dair protokol imzalanıb.

"Bu, NATO, Çernoqoriya və Qərbi Balkanların stabilliyi üçün tarixi gündür, NATO-nun genişlənməsi və Çernoqoriyanın NATO-ya qatılması təsdiq edir ki, alyansın qapıları açıqdır və bu, genişlənmə siyasətində daha bir uğurlu addımdır", – təşkilatın baş katibi Yens Stoltenberq bəyan edib.

Onun sözlərinə görə, Çernoqoriya müşahidəçi qismində NATO-nun bütün iclaslarında iştirak edəcək. NATO-ya üzv olan dövlətlər bu protokolu təsdiq etdikdən sonra Çernoqoriya Şimali Atlantika alyansının 29-cu üzvü olacaq.

ABŞ-ın səfiri Duqlas Lyut Şimali Atlantika alyansının Çernoqoriyanı öz tərkibinə dəvət etməsini üzvlüyə iddia edən daha üç Şərqi Avropa ölkəsi üçün də bir siqnal olduğunu bəyan edib.

# RUSİYA ORDUSU SURİYADA BÖYÜK İTKİ VERİB




İŞİD silahlıları Suriyada Rusiyanın aviabazasını güclü artilleriya atəşinə tutublar.

Zərbə nəticəsində dörd Mi-24 hücum helikopteri və onlarla hərbi sursatla dolu yük maşını məhv edilib.

Bu faktı peyk çəkilişlərinə əsaslanan Stratfor agentliyinin ekspertləri də təsdiq ediblər.

Rusiya hakimiyyəti isə hadisənin silahlıların artilleriya hücumu nəticəsində deyil, yanğın səbəbindən baş verdiyi barədə rəsmi bəyanat səsləndirib.

Baş vermə səbəbindən asılı olmayaraq Rusiyanın dörd hərbi helikopterinin məhv olması onun Suriya ərazisində İŞİD-lə mübarizəyə cəlb olunmasından bəri ən böyük itkisidir.

Hücuma məruz qalan baza Homs əyaləti ərazisində, Palmira yaxınlığında yerləşir.

Xarici təhlilçilərin sözlərinə görə, baza bir neçə güclü zərbəyə məruz qalıb.

# BRİTANİYALI GENERAL RUSİYA İLƏ NÜVƏ MÜHARİBƏSİNİN MÜMKÜNLÜYÜNDƏN BƏHS EDİB

İstefada olan britaniyalı general ser Riçard Şirreff əgər NATO Baltikyanı ölkələrdə öz müdafiə qabiliyyətini gücləndirməsə alyans və Rusiya arasında il ərzində nüvə müharibəsi başlaya biləcəyini bəyan edib.

Şirrefin fikrincə, Estoniya, Litva və ya Latviyanın hədəf ola bilməsi ehtimalı böyükdür. O, qarşıdurmanın mütləq nüvə müharibəsi ilə nəticələnəcəyinə əmin olduğunu bildirib. The Independent-in məlumatına görə, Riçard Şirref bu fikirləri Rusyanın mövcud hərbi doktrinasına əsaslanaraq söylədiyini bildirib.

General NATO-nun zəifliyinə əmin olan Rusiyanın öz hücumunu Baltikyanı ölkələrdəki rusdilli əhalinin müdafiəsi adı altında həyata keçirə biləcəyini ehtimal edir.

Riçard Şirreff 2011-2014-cü illərdə NATO-nun Avropadakı birləşmiş hərbi qüvvələrinin ali baş komandanının müavini postunu tutub. Onun bir qədər əvvəl "2017: Rusiya ilə müharibə" adlı kitabı işıq üzü görüb. Müəllifin əsərindəki hadisələr uydurma olsa da, müəllif onları gerçəkliyə yaxın hesab edir.

Qərb nümayəndələri dəfələrlə Rusiya tərəfindən təhlükə barədə bəyanat səsləndiriblər. Alyans Şərqi Avropada qüvvələrin gücləndirilməsini məhz bununla izah edir. Pentaqon mayın əvvəlində Baltikyanı ölkələrdə və Polşada Şimali Atlantika Blokunun dörd batalyon yerləşdirə biləcəyini bəyan edib.

Rusiya hakimiyyəti Moskvanın qarşıdurmada maraqlı olmadığını, lakin Qərbin hərəkətlərinə adekvat cavab verməyə hazır olduğunu daim qeyd edir.

# KİTAB FESTİVALI FONUNDA DÜŞÜNCƏLƏR

**Hansı kitabı məsləhət görürsünüz? Klassika seriyasından yeni hansı kitabınız var? Sevgi hekayələrini əhatə edən kitab ala bilərəm? Hansı kitablarda endirimlər var? Mənə dünya bestsellərindən hansı kitabları məsləhət görə bilərsiniz? Rus poeziyasını hansı guşədən əldə etmək mümkündür? Bunlar və buna bənzər suallar bir neçə gün əvvəl paytaxtımızda bir-birinə dolaşıb insanı məst edirdi. Söhbətin nədən olacağını anladığınıza heç şübhə etmirəm. Kitablardan. 26-29 may tarixində paytaxt Tbilisi hər il olduğu kimi, bu il də beynəlxalq kitab bayramına ev sahibliyi edirdi. Bəli, sözün əsl mənasında bayram. Böyük sərgi zalının divarlarında yazıma giriş olmaq şərəfinə yüksəltdiyim cümlələr əks-səda verirdi. Böyük bir izdiham, insan axını kitab dünyasından pay almaq üçün bir-biri ilə yarışırdı. Dəyərli oxucum, cümlələrimin ifadə tərzinə aldanıb nağıl danışdığımı və ya mübaliğə etdiyimi düşünməyəcəyinə ümid edirəm. Səni şübhələrdən azad etmək üçün də, bayramın ilk günündən bir neçə fraqmenti nəql etmək niyyətindəyəm.**

Kitab dünyasını ziyarətə bizimlə birlikdə onlarla, hətta daha çox əngəlli, yerimə, danışma qabiliyyətindən məhrum şəxs gəlmişdi. Mütləq ki, bu insanların yüz dərdi-səri vardır. Mütləq ki, oxumaq üçün vaxtı hər hansı fədakarlıqlar nəticəsində əldə edirlər. Ancaq, onlar orada idilər.

Başı kitab almağa qarışan gənc bir ata isə 4-5 yaşlarındakı qızını itirmişdi.

Növbəti sırada hamilə bir qadın bir ildir iki şüşə bankaya pul yığdığını, birini doğulacaq uşağının ilk xərcləri, digərini isə kitab festivalı üçün nəzərdə tutduğunu yanındakı rəfiqəsinə nəql edirdi.

Daha bir xanım isə, Qabrielin istədiyi kitablarını tapa bilmədiyini deyərək, tələşla sıraların arasında vurnuxurdu. Bunlar yalnız gözümə, qulağıma sataşanlar, kitab üçün qarşısındakını ayaqlamaqdan çəkinməyənlərin yəqin ki, sadəcə bir hissəsi idi. Sərgi zalına daxil olduqdan qısa zaman sonra, oradakı izdiham, səs-küy insanda maksimum diskomfort yaradırdı. Yeridikcə əzilir, tərləyir və yorulurduq. Çünki biz yazıq bu cür insan sıxlığı ilə uzaqbaşı məktəbqabağı Lilo bazarında qarşılaşmışlardanıq. Bəli, hər nə qədər rahatsızedici "qalınlıq, qələbəlik" olsa da, bu, özlüyündə çox sevinməli bir hal idi. Qocasından cavanına, əlilindən ikicanlısına yüzlərlə insan həm paytaxtdan, həm də



bölgələrdən bu bayramdan pay almaq üçün axışmışdı. Konsertlərdə atasının-əmisinin çiynində görməyə alışdığımız körpələri bu dəfə məhz bu məkanda, bu şəkildə görmək həqiqətən də yaxşı mənzərə idi.

Gürcülər kitaba dəyər verir, kitabı sevirlər. Bunu mən demirəm, dərinliyinə o qədər də yaxşı vaqif olmadığım tarix də deyir. Hələ uzun əsrlər öncədən Gürcüstanda, gürcülər arasında kitabın, maarifin nə demək olduğu lazımınca qavranılmışdır. Gürcü dilində წიგნიერება – ciqniereba, yəni savadlılıq sözünün dilimizə hərfi tərcüməsi "kitablı olmaq, kitablılıq" deməkdir. Yəqin bu səbəbdəndir ki, elə o dövrlərdən gürcü dilində kitabların yazılmasına, müxtəlif dillərdən gürcü dilinə tərcümələr edilməsinə böyük önəm verilmişdir. Dünya ədəbiyyatı və tarixinin ən nadir nümunələrinin də elə o vaxtdan gürcü dilində oxunması mümkün olmuşdur. Yəqin edirəm ki, gürcülər kitab sevgilərini tarixi atalarına, öndərlərinə borcludurlar.

Bunları nə üçünmü yazıram? Könlüm o məkanda hər yerdə sıx- sıx rastlaşdığım azərbaycanlıları da görmək istəyərdi. Çünki oradan türk, gürcü, rus və ingilis dillərində kitablar əldə edə bilərdilər. Bizim hər işdə baş olan nə ağsaqqallarımızdan, nə dili ilə qan edən gənclərimdən orada görmək nə yazıq ki, yox səviyyəsində idi. Bir-iki nümunə istisna olmaqla. Bəlkə xəbərləri yox idi? Məndə sual yaranır necə olur ki, paytaxtda təhsil alan 2500-ü aşan gəncimizdən 500-ü bu haqda xəbər tutmur. Axı onlar hər konserti, hər restoranın açılışını, Tbilisinin küçələrində baş verən yenilikləri və əyləncələri qaçırmırlar. Cüzi maraqları olsa bunu da qaçırtmazdılar. Bəlkə pulları və imkanları yoxdur? Əsla. Oradakı gürcü gənclər qaraçı bazarında satılan 3-5 larilik ayaqqabılarla kitab almağa gəlmişdilər. Deməli, bizim kafe-kafe, konsert-konsert gəzən, gündə bir libasda dolanan qızlarımız, oğlanlarımız da kitab almaq üçün pul tapmaqda çətinlik çəkməzdilər. Onların bu hərəkətlərinin altında yatan səbəblər isə başqa bir geniş yazı mövzusu olduğu üçün növbəti sayımıza saxlayıram.

Ən sevmədiyim şeylərdən biri millətləri müqayisə etməkdir ki, bu gün özüm etməli oldum. Axı, bizim gürcüdən, ermənidən başımızın harası əskikdir ki, biz kitabın nə demək olduğunu bilməyək?! Kitaba sərf edilən vaxtı boşa getmiş, kitaba verilən pulu israf adlandıraq?! Kitab sevgisi, bəlkə keçmişimizdən bizə miras qalmayıb, bəs gələcəyimizə miras qoymağımıza əngəl nədir?

**Axı, kitab işıq deməkdir, ən sədaqətli dost, ən böyük müəllim deməkdir. Sinəsində min aləm daşıyan böyük müəllim... Hər şeyə rəğmən, bizim də bu sevgidən pay ala biləcəyimizə ümid edirəm...**

Afayət AFİQ

## GÜRCÜSTAN ORTA ÖMÜR UZUNLUĞUNA GÖRƏ LİDERLƏR ARASINDADIR



Ümumdünya Səhiyyə Təşkilatı orta ömür uzunluğuna dair özünün 2015-ci il üzrə hesabatını dərc edib.

Postsovet ölkələri arasında ən yüksək orta ömür uzunluğu Estoniyada (77,6 il) qeydə alınıb. Ermənistan (74,8 il) və Latviya (74,6 il) postsovet ölkələri arasında müvafiq olaraq ikinci və üçüncü pillələri bölüşüblər. Məlumata görə, Gürcüstan əhalisi orta hesabla 74,4 il yaşayır və bu göstərici ilə ölkəmiz postsovet ölkələri arasında dördüncü yeri tutur. Litva vətəndaşları 73,6 il, Azərbaycan sakinləri isə 72,7 il ömür sürürlər. Belarusda orta ömür 72,3 il, Moldovada isə 72,1 il davam edir. Ukraynalıların orta ömür uzunluğu 71,3 ildirsə, qırğızlarda bu göstərici 71,1 ildir. Rusiya əhalisi 70,5 il, Qazaxıstan əhalisi isə 70,2 illik orta ömür uzunluğuna malikdir. Hesabatda taciklərin 69,7 il, özbəklərin isə 69,4 il orta ömür uzunluğu qeyd olunur. Postsovet ölkələri arasında ən aşağı orta ömür uzunluğu Türkmənistanda (66,3 il) qeydə alınıb.

## ÜÇ MİNƏDƏK ABİTURİYENT VAHİD MİLLİ İMTAHANLARI VERƏ BİLMƏYİB

2900-ə yaxın abituriyent buraxılış imtahanlarında minimal həddi keçə bilmədiyi üçün vahid milli imtahanlarda iştirak edə bilməyəcək. Bu barədə milli imtahanlar və qiymətləndirmə Mərkəzindən bildiriblər.

21-25 may tarixində keçirilən buraxılış imtahanlarını qırx mindən artıq məktəbli verə bilib. Buraxılış imtahanları gürcü dili və ədəbiyyatı, xarici dil, tarix və riyaziyyat üzrə keçirilib.

Gürcü dili və ədəbiyyatı imtahanından şagirdlərin təxminən 98%-i keçə bilib.

Xarici dil imtahanına qatılan 43 min şagirddən 85%-i həddi keçib. Minimal həddi keçmək üçün şagirdlər 15 suala düzgün cavab verməli idilər.

Tarix imtahanına gələn 42 min şagirdin 95%-i müvəffəq qiymət alıb. Riyaziyyat imtahanına qatılan 42700 abituriyentin 86%-i uğurlu nəticə göstərib.



Vahid milli imtahanlarda iştirak etmək üçün 41500 abituriyent qeydiyyatdan keçib. Lakin bu il artıq onların 2900 nəfəri qəbul imtahanı verə bilməyəcək.

## "ARDİ" SIĞORTA ŞİRKƏTİ MÜŞTƏRİLƏRİNƏ TÜRKİYƏDƏ MÜALİCƏ OLUNMAĞI TƏKLİF EDİR

"Ardi" sığorta şirkətində sığorta olunan şəxslər Türkiyənin aparıcı klinikasında müalicə oluna biləcəklər. Bu təşəbbüs Gürcüstanın sığorta bazarında tətbiq olunan bir yenilikdir.

Bu yeniliyi sığorta bazarına ilk olaraq "Ardi" sığorta şirkəti gətirib. Türkiyə tərəfi ilə müvafiq memorandum "Courtyard Marriott" otelində imzalanıb.

Bundan sonra "Ardi"də sığorta olunan şəxslər Türkiyənin aparıcı klinikalarından biri olan ANADOLU klinikasında müalicə olunmaq imkanı qazanacaqlar.

## TBİLİSİ DÜNYANIN "100 SABİT ŞƏHƏR" SİYAHISINA DÜŞÜB

Tbilisi dünyanın "100 sabit şəhər" siyahısına düşüb və Amerikanın xeyriyyə təşkilatı Rokfeller Fondundan maliyyə yardımı alacaq.

"100 sabit şəhər" layihəsini Rokfeller Fondu həyata keçirir və siyahıya düşən şəhərlərə XXI əsrin problemlərini, xüsusən də təbii fəlakət, işsizliyin yüksək səviyyəsi və effektiv olmayan nəqliyyat sistemini qaydaya salmaq üçün maliyyə yardımı edir.

"100 sabit şəhər" layihəsinin üzvləri arasında Tbilisi ilə yanaşı Nyu-York, Los-Ancels, Çikaqo, London, Milan, Barselona, Paris, Rio de Janeyro və digər şəhərlər də var.

# GÜLÜMSƏ QARŞILA AYRILIQLARI...
## (Rable gülüşü)

**Mirzə Qələmə babası da çox deyirdi: – Bala, get stomatologiya oxu, biologiya, antropologiya oxu, amma filologiya oxuma. Stomatoloqun gözəl imkanları olur. Axı adamın otuz iki dişi var. Hər adamın beş dişini çıxartsan, hərədən sənə beş quruş düşər; həm özünün, həm də balalarının gümrah günü-güzəranı olar. Üstəlik, adamların gülüşünə, təbəssümünə də yardım etmiş olarsan: çünki…əgər dişlərin varsa, gülməyə dəyər! Sözümə baxmadın. İndi get filoloqluğunu elə; get hərfləri, yazıları sevməkdə ol! Qabaq dişlərinisə düzəltdirə bilmirsən: barı bircə dəfə də sən ürəkdən gülərdin!..**

…sonra da Fransanın fəxri (elə Əyriqarın da) olan Hüqodan sitat gətirir: "Gülüş – Günəşdir, adamın üzündəki-gözündəki qışı qovur".

Bəli, söhbət gülüşdən gedir! Ona görə də – etiraf edim ki, daha çox bədii sözə aid olduğum üçün – söz adamlarının təbəssümündən başlamaq istəyirəm.

Yazıçıların çoxu şəkildə gülümsəyir. Şairlər şehli təbəssüm göstərməkdə heç də nasirlərdən geri qalmırlar.

Müşfiqin gülümsəməyi nələrdən xəbər verir? Kimə, nəyə gülümsəyirdi?

Cəfər Cabbarlı, Səməd Vurğun, Rəsul Rza, Nəriman Həsənzadə, Sabir Rüstəmxanlı, Vaqif Bayatlı, Elçin Hüseynbəyli…

Vaqiflərin vaqifanə təbəssümü olur!

Bu bir. İkincisi, ədəbiyyatda ifşaedici, öldürücü gülüşdən – satiradan və islahedici, yumşaq gülüşdən – yumordan istifadə də bəlli məsələdir. Yəni, bu gülüş "formaları" adi gülüşdən fərqlidir. Nə isə... mövzudan kənara çıxmayaq...

..."Nə qədər yaraşır insana gülmək!" – köhnə dəbli mahnıda belə oxunurdu. Gülüşün "səhhət bulmaq"da necə böyük əhəmiyyət daşıdığını tibb-məlumat kitabçalarında da görmək olar. İnternet həvəskarlarının iddialarına görə, müxtəlif saytlarda bu barədə yetərincə xəbər yerləşdirilib.

Qısa rakurs etməklə kifayətlənirəm.

Müasir psixologiyada gülüş terapiyasından geniş istifadə olunur. Gülüşü antidepressiant hesab edənlər də çoxdur.

Platondan tutmuş Kanta və Freydə qədər gülüşün əhəmiyyətindən söz açmışlar.

Viktor Hüqonun (əlbəttə, Fransanın və Əyriqarın fəxri) "Gülən adam" romanı yadınızdadırmı? Kralın gizlin fərmanına görə, zadəganları, habelə qara camaatı əyləndirmək (güldürmək) üçün uşaqları oğurlayıb onları eybəcər hala salırdılar; sifətləri gülüş doğururdu. Vaqif adamlara məlum olan mənası bu idi ki, insanın alçaldılması onu insan simasından məhrum edir.

Tarixi və müasir təlxəklər də bir özgə mövzudur.

Komik aktyorlar da həmçinin... Müxtəsəri, gülüşün nə qədər xeyri var cana!

İnsanın tamaşa və çörək acı olması faciələr doğurub həmişə!

...Ancaq mənim ənənəvi mövzum Mirzə Cəlil "dərsləri"nə aid olduğu üçün Süsən-Sünbüldə yaradılmış "De-gül, çal-çağır" klubundan söhbət açıram.

Onu da bərrü-biyaban bəyan edim ki, elə zənn edirdim ki, "klub" ifadəsi artıq arxivə qatılıb. Çünki təkcə Süsən-Sünbüldə yox, bütün bölgədə klublar fəaliyyətini çoxdan dayandırıb. Sovetlərin yıxılmağı klubları da yıxdı... Mirzə Pirverdinin PEN klubundan başqa!

…Mirzə Qələm Süsən-Sünbülə yaradıcılıq ezamiyyətindən yenicə qayıdıb. Sözü ona verək ki, söhbətimiz canlı olsun.

Mirzə Qələm:

– "De-gül, çal-çağır" klubuna Mirzə Qərənfil (Allah Sabit Rəhmana rəhmət eləsin!) başçılıq edir. Klubun giriş qapısına qara hərflərlə, nədənsə Kiril əlifbası ilə yazılıb: "Ağladan yanında oturma, güldürən yanında otur".

Klub əvvəllər toy işinə baxırmış. Açıqlayım: məsələn, filankəsin toyunu filan sazandalar çalmalıdır, filankəsin toyunu filan... Bir dəfə Mirzə Halaypozan qərara gəlir ki, oğlunun toyuna Qaraçöpdən musiqiçilər dəvət etsin. Kənddə az qalır ki, qan düşə. Çünki klubun "rəyinə" görə sazandalar hökmən Başkeçiddən olmalı idi.

Klubun hazırkı işi nədən ibarətdir? Ayıları Müdafiə Komitəsi yaradıblar. Deyirəm, ay Mirzə Qərənfil, axı bizdə daha ayı yoxdur, meşələrimiz, özümüz gül kimi təmiz, fikirlərimizdə, necə deyərlər, dan yeri sökülür. Yaxşısı budur insan haqlarını qoruyaq; hüquq əsridir!

Cavabında üç diplomunu göstərir; yəni yolunla düz get, özüm öyrətməyə adam axtarıram.

Onu da deyim ki, klub gələn ayın başında "Gəhgəh, cəh-cəh" adlı iyirmi dörd səhifəlik qəzet buraxmağa hazırlaşır.

Son olaraq bildirirəm ki, Süsən-Sünbüldə iki nəfər göyçəli didərgin də yaşayır. Üzlərini gülən görən olmayıb hələ; sanki gülüşü yadırğayıblar. Göyçə tərəflərə baxmaqla, gözlərinin kökünü saraltmaqla əhvalmı, ovqatmı düzəltmək olar?

P.S.

Mən bunları "hekayə anlatmaq üçün" yazmadım. Olsa-olsa... olanları deməyə çalışdım.

Mirzə Ələkbərdə necədirsə, onu göstərməyi də borc bilirəm:

"– Gülmə!

– Pəkey, şamu səhər ağlaram".

Mirzə Cəlil isə belə deyirdi: "Əgər bilmək istəsəniz ki, kimin üstünə gülürsünüz, o vaxt qoyunuz qabağınıza aynanı və diqqətlə baxınız camalınıza".

Bu yerdə Mirzə Qələm demiş: gülümsə qarşıla ayrılıqları…

**Amma bütün hallarda, hətta göz yaşı içində də olsa, qismətiniz təbii, ürəkdən gələn gülüş, təbəssüm olsun!..**

İBRAHİMXƏLİL

## GÜRCÜ KİLSƏSİ DİNLƏRARASI NİKAHLARA XEYİR-DUA VERMƏYƏCƏK



Müqəddəs Sinod dinlərarası nikahın Altıncı Ümumdünya Kilsə məclisinin 72-ci kanonuna zidd olduğu qərarına gəlib.

Gürcüstanın Müqəddəs Sinodu pravoslavlar və digər dinlər arasında bağlanan nikahlara xeyir-dua verməmək haqqında qərar çıxarıb. Bu barədə Sinodun iclas protokolunda qeyd olunub.

Müqəddəs Sinod özünün bu qərarı çıxarmasını dinlərarası nikahın Altıncı Ümumdünya Kilsə məclisinin 72-ci kanona zidd olması ilə əlaqələndirib.

Son vaxtlaradək kilsə bu cür nikahlara bir şərtlə – bu ailələrdə doğulacaq uşaqlar pravoslav kilsəsində xaç suyuna salınacaqları təqdirdə xeyir-dua verirdi.

## AVROPA BİRLİYİ İLƏ ASSOSİASİYA HAQQINDA SAZİŞ 1 İYULDAN QÜVVƏYƏ MİNİR

AB ilə Gürcüstanın assosiasiyası haqqında saziş 1 iyuldan qüvvəyə minəcək. Bu tarixi ölkənin xarici işlər naziri Mixail Canelidze səsləndirib.

"Hamıya bəllidir ki, saziş şərti olaraq hələ 2014-cü ildə qüvvəyə minib. Bununla belə biz görüşdə 2014-cü ildən sonra Gürcüstanın əldə etdiyi bütün müsbət nəticələri müzakirə etdik. Avropa ilə mal dövriyyəsi artıb, ixrac artıb, Avropanın sahibkarları və maliyyə institutları tərəfindən böyük investisiyalar həyata keçirilir", – Canelidze Brüsseldə bəyan edib.

O, AB ölkələrinin hamısı tərəfindən AB ilə viza rejiminin sadələşdirilməsi baxımından Tbilisinin tam dəstəkləndiyini də vurğulayıb.

Gürcüstan AB ilə assosiasiya haqqında sazişi 2014-cü ilin iyulunda imzalayıb. Keçən ilin dekabrında Avropa Komissiyasının təqdim etdiyi məruzədə Gürcüstanın AB ilə viza rejiminin sadələşdirilməsi üçün bütün şərtləri yerinə yetirdiyi qeyd olunub. Martın 9-da Avropa Komissiyası Gürcüstan vətəndaşları üçün vizanın ləğv edilməsi barədə təşəbbüslə çıxış edib. Bunun artıq yayın əvvəlində mümkün olacağı gözlənilir.

## AZƏRBAYCAN BELARUSLA BİRGƏ İSTEHSAL ETDİYİ TRAKTORLARI GÜRCÜSTANA İXRAC EDİR



Azərbaycan Belarusla birgə istehsalı olan kənd təsərrüfatı traktorlarının Gürcüstana ixracına başlayıb. Bu barədə Belarus baş nazirinin müavini Mixail Rusiy Bakıda Azərbaycan prezidenti İlham Əliyevlə görüşündə bəyan edib.

M. Rusiy 2016-cı ildə Azərbaycan müəssisələrində 2 min Belarus traktorları hazırlanacağını bildirib.

Öz növbəsində İlham Əliyev qonağa ölkəsinin aqrar-sənaye kompleksi sahəsi üzrə planları barədə məlumat verib. "Caspian Agro-2016" Azərbaycan beynəlxalq kənd təsərrüfatı sərgisinə toxunan prezident sərgidə nümayiş etdirilən Belarus məhsullarının Azərbaycanın müvafiq strukturlarının diqqətini cəlb etdiyini vurğulayıb.

Rusiy Azərbaycanda tamdəyərli kənd təsərrüfatı maşınqayırmasının yaradılmasının vacibliyini qeyd edib.

Baş nazirin müavini birgə istehsal olunmuş texnikanın üçüncü ölkəyə ixracı üçün Azərbaycanın yaxşı tərəfdaş olduğunu vurğulayaraq, bu məqsədlə onun istehsal həcminin artacağına əminliyini ifadə edib.

## TÜRKİYƏYƏ SƏFƏR EDƏNLƏR ARASINDA GÜRCÜSTAN VƏTƏNDAŞLARI İKİNCİDİR

Türkiyə mədəniyyət və turizm nazirliyinin saytında verilən məlumata görə, cari ilin yanvar-aprel aylarında Gürcüstan vətəndaşları Türkiyəyə səfər edən əcnəbilər arasında ikinci yeri tuturlar.

İlin əvvəlindən Türkiyə sərhədini cəmi 615 min Gürcüstan vətəndaşı keçib ki, bu da 2015-ci ilin eyni dövrü ilə müqayisədə 34,15% çox deməkdir.

Türkiyəyə səfər edən əcnəbilər arasında Almaniya vətəndaşları birincidirlər. Hesabat dövründə ölkəyə 730 min Almaniya vətəndaşı gəlib. Bu isə 2015-ci ilin yanvar-aprel aylarının göstəricisindən 35,43% azdır. Türkiyəyə gələn iranlıların sayı 561 min nəfər olub.

Aprel ayında Türkiyəyə turist axınının səviyyəsi son 17 il ərzində ən aşağı səviyyəyə düşüb. Keçən ilin analoji dövrü ilə müqayisədə ölkəyə gələnlərin sayı 28,1% azalıb.

## SOCAR-IN KULEVİDƏKİ TERMİNALI 8 İL ƏRZİNDƏ 20 MİLYON TONDAN ARTIQ MƏHSUL YOLA SALIB

Gürcüstanın Kulevi limanında yerləşən SOCAR-a məxsus "Qara dəniz terminalı" (BST Ltd) özünün 8 illik fəaliyyəti ərzində toplam 20,285 milyon tondan artıq xam neft və neft məhsulları yola salıb. BST-in saytında verilən press-relizdə deyilib ki, illik buraxıcılıq qabiliyyəti 10 milyon ton olan bu terminal regionda ən uğurlulardan biridir.

Məlumatda bildirilir: "Biz Avropa və Asiya ölkələrindən gəmilər qəbul edirik. Fəaliyyətə başladığımız 16 may 2008-ci ildən 16 may 2016-cı ilədək terminalın neft və neft məhsulları 20, 285 milyon tonu keçib".

Kulevi terminalı 2007-ci ilin yanvarında alıb və onun tikintisi üçün 350 milyon dollardan artıq sərmayə yatırılıb.

# QƏDİM TİFLİSİN SAZ VƏ SÖZ USTALARI

**Saz, söz deyimləri türklərin ta qədim zamanlardan özlərini dərk etdikləri andan mənəvi tələbatına, daha doğrusu mənəvi pasportuna çevrilmişdir. Dünyanın hər yerinə səpələnmiş türklər əsrlər boyu istər savaş meydanında, istərsə də el şənliklərində, mərasimlərdə sevinc və kədərlərini, nifrət və sevgilərini oxla-yayla, qılınc-qalxanla yanaşı sazla, sözlə də vermişlər.**

Türklərin mənəvi atası hesab olunan Dədə Qorqud söz söyləyəndə, boy boylayanda əlinə qopuz götürərək igid ərənlərə, qoç igidlərə tərif söyləmiş, onlara adlar qoymuşdur.

Sazın, çoğurun ulu dədəsi olan qopuzu türklər müqəddəs bilmiş, onu çala bilməyənləri özlərindən hesab etməmişlər. Hətta savaşlarda belində qopuz olan döyüşçüyə düşmənin əl qaldırmadığını da söyləyirlər. "Dədəm Qorqud qopuzu hörmətinə çalmadım" – deyiblər və onu öldürməyiblər.

Sazı sözə, sözü saza bağlayan, elin nəfəsi ilə nəfəs alan, elin ağrı-acısı ilə, sevinci-fərəhi ilə oturub duran, çalıb-çağıran el sənətkarı müxtəlif vaxtlarda aşıq, ozan, varsağı adlanmışdır.

XI əsrdə bir çox ölkələri gəzən, türk tayfalarının lüğətini yazan Mahmud Kaşğarinin "Divani-lüğət-it-türk" əsərində Azərbaycan xalqının etnik tərkibinə daxil olan oğuz, türkmən və qıpçaqların da şifahi və yazılı ədəbiyyatlarından verilən nümunələrə rast gəlmək olur. Həmin nümunələr içərisində qoşqu kimi verilən şer növləri qədim ozan şerinin nümunələridir.

Ozanlar oğuzlar arasında səlcuqilər dövlətinin yaranmasından çox qabaq söz ustası, rəqqas, musiqişünas, sehrbaz, həkim kimi böyük nüfuz qazanmışdılar. Hun hökmdarlarının saraylarında, türk ordularında mütləq ozanlar çalıb, oxuyardılar. Türk xalqlarının bir çoxunun Çin, Hind, İran, yaxud İslam mədəniyyətləri ilə qarşılıqlı təsir və əlaqələrinin yarandığı dövrlərdə belə ozanlar öz mövqeyini qoruyub saxlamışlar. Ozanların istifadə etdikləri qopuz ən qədim zamanlardan bir sıra türk xalqları, o cümlədən azərbaycanlılar arasında da geniş yayılmışdı. Bu barədə çox danışmaq olar, odur ki, mən qədim Tiflisin ozan dünyası, aşıqlıq sənəti, gürcülərin təbirincə desək, şəhər poeziyası barəsində danışacağam.

"Gürcü poeziyası silsiləsindən "Şəhər poeziyası" kitabının ön sözündə Emzar Kvitaişvili yazır: "Şərq (İran) mənşəli olmasına baxmayaraq, aşıq poeziyası deyilən poeziya bizdə açıq-aşkar milli, gürcü formasını alıb (bu, ən başlıcası gürcü klassik şeir ənənələrinin özünəməxsus mənimsənilməsini müəyyən edir) və onun əsası Tiflis dili, Tiflis danışığı, şivəsi olub". O, başqa bir yerdə yazır:

"Aşıq-şəhər poeziyasının isə bizim ədəbiyyatın heç bir zaman əsas, magistral xətti olmadığını düşünənlər haqlıdırlar. Lakin onu da inkar etmək mümkün deyil ki, o, gürcü poeziyasının həddindən artıq özünəməxsus olan bir qoludur". Gürcü aşıq poeziyası deyəndə ilk növbədə Sayat Nova yada düşür. Qoşqularının əksəriyyəti Azərbaycan dilində olan sazəndə Sayat Nova sənətini Qivişvili, Skandar Nova, Hazira, sonralar isə Ganciskareli, Beçara, Yetim Gürcü və başqalarının davam etdirdiyini yazır. Bildiyimiz kimi, Sayat Nova sazəndə kimi üçlükdən ibarət dəstəsi ilə tanınıb. XIX əsrin ikinci yarısında sazəndə dəstəsi – xanəndə, tarzən, kamança və qoşa nağara çalanlar olmaqla dörd nəfərdən, XX əsrin əvvəllərindən isə xanəndə dəstəsi əsasən üç nəfərdən – xanəndədən, tarzəndən və kamançaçalandan ibarət olmuşdur.

Gürcü şairi Giorgi Leonidze özünün "Ozan Sayat Nova" adlı diqqət çəkən çoxcəhətli bioqrafik eskizlərində Sayat Novanın aşıq adlandırılması barədə belə yazır: "... bu dolğun spesifik poeziyanın bədii forması və məğzi kimi ədəbiyyatın mənafeyini önə çəkə bilən Sayat Nova yeganə aşıqdır...". Sayat Nova haqqında qəzetin əvvəlki saylarında geniş məlumat verildiyindən burada çox danışmayacağam. Aşıq qoşuqalarının ən çətin formalarına müraciət edən Sayat Novanın bizə qədər gəlib çatan qoşuqalarının əksəriyyəti, yəni 115-i Azərbaycan, 60-ı erməni, 37-si gürcü dilindədir. O, özü haqqında belə deyib:

*Hamı yaxşı bilir nə xanəndəyəm*
*Əlifbanı bilirəm, sözlə öndəyəm.*
*Adım Sayat Novadır, Arutinəyəm.*
*Söz deyərəm mən, göy guruldayar.*

O, bir yerdə yazır: "Meydan qurulub, kəndirbazı çatışmır".

Georgi Leonidze bu bənzətmədən ustalıqla istifadə edib:

"Bu gün Tiflis meydanında mənəm şeirin kəndirbazı". Mən burada onun şeirlərinin təhlilinə keçməyəcəyəm. Bu, tamamilə başqa mövzudur.

***

Tiflisin söz ustalarından biri və ən populyarı Yetim Gürcü olub. Qədim Tiflisin koloritinə hopmuş musiqi həmahəngliyində, sazın-qoşqunun həlimliyində Yetim Gürcünün yeri xüsusi olaraq bəllidir. Həyatda yetim olsa da və yetimlik adına yaraşdırılsa da sənət dünyasında, qədim Tiflisin bohemasında onun yetimliyi hiss olunmamış, onun doğmalarına çevrilən pərəstişkarlarının sayı-hesabı olmamışdır. Adının da, özünün də qəribə olduğu Yetim Gürcünün taleyi Qədim Tiflislə sıx şəkildə bağlı idi. Qədim Tiflis, onun kintosu, qaraçoxelisi onun üçün doğma idi, əziz idi.

Qədim Tiflis musiqisinin tədqiqatçısı Aleksi Barnov Yetim Gürcü sənətinin vurğunu olmuş, onunla dostluq etmişdir. O, bu barədə özünün "Qədim Tiflisin musiqiçiləri" kitabında yazır: "Nə edim, sevirəm Tiflisi. Əslən tiflisli olan, uşaqlıq illərindən qaraçoxelilər arasında böyüyən, Yetim Gürcü və İosif Qrişaşvilinin yaxın dostu məgər Tiflisi və onun musiqisini sevməyə bilərmi?". Odur ki, Yetim Gürcü şeirlərinin çoxunu müxambazi havasında oxuyurdu.

Bədnam qonşular hər bir şeydə, hər yerdə özlərinə məxsus cizgilər axtarmağı, başqalarınınkını özlərininki etməyi, mənimsəməyi bir növ vərdiş etmişlər. Yetim Gürcünü də özlərininki kimi qələmə verməyə çalışmışlar. Yaxşı ki, Yetimin elə özü öz sağlığında onlara kəsərli cavab vermişdir. Yetim gürcünün dostu Aleksi Barnovun da dediyi kimi, onun gürcü olmağı şeirlərindən də duyulur:

*Əcdadlarım ilə gürcüyəm,*
*Çar Vaxtanqın nəslindənəm.*

Fikrimizi daha da dəqiqləşdirmək üçün Aleksi Barnova müraciət etmək istəyirəm. O, belə xatırlayır: "Yetim Gürcü hər millətdən olan xalqı hədsiz dərəcədə sevirdi. Lakin onun başqa bir millətin oğlu kimi qələmə verilməsini xoşlamazdı. Buna məni bir fakt əmin etdi. 1928-ci il idi. Vera parkında xanəndə Xaçik Talqaukov (sonralar zurnaçılar dəstəsinin başçısı) ilə Data Zubiaşvilinin uşaqları bir-biriləri ilə mübahisə aparırdılar. Sonuncular deyirdilər ki, Yetim gürcüdür, Xaçik isə onlarla razılaşmayıb deyirdi ki, ermənidir. Bu zaman bağa mən də gəldim. Mərcləşənlər məni görən kimi mənə tərəf gəldilər. Yetimin bir dostu kimi onun milliyyətini soruşdular. Bu məsələ barəsində Yetim ilə heç bir zaman danışmadığımdan onlara cavab verə bilmədim. Yetim Gürcü bu zaman harasa getmişdi. Gələndə ondan hansı millətdən olduğunu soruşdum. Yetim mənim belə gözlənilməz sualımdan çox inciyərək dedi ki, bunu məndən sən soruşmursan! Başa düşmüşdü və mən də işin nə yerdə olduğunu ona danışdım. Hiss etdim ki, onun xoşuna getmədi. Xaçiki çağırdı və hörmət etməsinə baxmayaraq, – Mən ki, gürcüyəm, Yetim Gürcü. Bunlar mənim mahnılarımda da aydın şəkildə öz əksini tapmışdır, – deyərək onu çox məzəmmət etdi".

**Yetim Gürcü el nəğməkarı, şənlik, ziyafət nəğməkarı idi. Qoşduğu qoşqular, oxuduğu mahnılar bir növ süfrəyə xeyir-dua, məclis əhlinə isə məsləhət idi.**

Mirzə MƏMMƏDOĞLU

## GÜRCÜSTAN AZƏRBAYCAN SAHİBKARLARI ÜÇÜN HƏR CÜR ŞƏRAİT YARADIR

Gürcüstan gürcü və azərbaycanlı sahibkarların qarşılıqlı əməkdaşlığı üçün mümkün olan hər şəraiti yaratmağa çalışır.

Bu barədə Gürcüstanın kənd təsərrüfatı naziri Otar Daneliya Bakıda CaspianAgro -2016 sərgisinin açılış mərasimində bəyan edib.

"Azərbaycanla məhsuldar əməkdaşlıqdan çox şadıq. Azərbaycan bizim strateji tərəfdaşımızdır. Bizim ortaq çox şeyimiz var, əməkdaşlığımızın əsas sahəsi aqrosənaye kompleksidir", – O. Daneliya vurğulayıb.

Onun sözlərinə görə, Gürcüstan kənd təsərrüfatı sahəsində bilik və təcrübəyə malikdir, əhalinin 50%-dən çoxu iqtisadiyyatın bu sahəsində çalışır.

"Kənd təsərrüfatı bizim üçün əsas sahədir, ölkədə nəzərə çarpan inkişafı müşahidə edə bilərik", – nazir qeyd edib. Otar Daneliya vurğulayıb: "Biz Gürcüstan iqtisadiyyatına birgə və təklikdə sərmayə yatıran azərbaycanlı biznesmenləri salamlayırıq. Biz qarşılıqlı əməkdaşlıq üçün mümkün olan hər cür şərait yaradırıq".

## ÖLKƏMİZDƏ EV HEYVANLARI ÜÇÜN "HAMAM"LAR FƏALİYYƏTƏ BAŞLADI

Rustavi və Marneuli şəhərlərində iri və xırda buynuzlu heyvanlar üçün duşxana, su çəni, baytar məntəqəsi və karantin zonasından ibarət biotəhlükəsizlik məntəqəsi yaradılıb.

Gürcüstan Ərzaq Agentliyinin mətbuat xidmətindən verilən məlumata görə, biotəhlükəsizlik məntəqəsinə hamı öz heyvanlarını gətirə bilər və məntəqədə xidmət tamamilə pulsuzdur.

Agentlikdə qeyd ediblər ki, məntəqə gün ərzində 8 minə yaxın heyvan qəbul edə bilər. Heyvanlar Avropa Birliyinin tələblərinə uyğun gələn dezinfeksiya vasitələri ilə təmizlənəcəklər. Bu, heyvanların sağlamlığını qorumağa, xəstəliklərin yayılmasını azaltmağa imkan verəcək.

Bu isə heyvandarlığın inkişafına və ixraca yardım etməlidir.

Ölkə miqyasında səkkiz belə məntəqə fəaliyyət göstərəcək.

## GÜRCÜSTAN UNİFİKASİYA OLUNMUŞ SİQARET QUTULARINA KEÇMƏK NİYYƏTİNDƏDİR

Gürcüstan Ümumdünya Səhiyyə Təşkilatının bütün üzv dövlətlərə ünvanlanmış çağrışını qəbul edərək, get-gedə brend siqaret qutularını ləğv etmək və əvəzinə vahid şəklə salınmış qutular tətbiq etmək niyyətindədir.

Vahid şəklə salınmış siqaret qutularından hal-hazırda dünyanın cəmi dörd ölkəsində – Avstraliya, Fransa, Böyük Britaniya və Şimali İrlandiyada istifadə olunur. Tünd şabalıdı rəngli qutunun üzərinin 75%-i tütünün təhlükəsi ilə əlaqəli qorxulu şəkil və yazılarla örtülür.

31 may ümumdünya Tütünsüz günü kimi qeyd olunur. Gürcüstanda bu günlə bağlı bir sıra tədbirlər keçirilib.

Xəstəliklərə nəzarət üzrə mərkəzin rəhbəri Amiran Qamkrelidze bəyan edib: "Biz bir dəfəlik bu zərərli vərdişə yox deməliyik, dövlət isə elə şərait yaratmalıdır ki, adamların ictimai yerlərdə siqaret çəkmək imkanı olmasın".

O, siqaret qutularının vahid şəklə salınmasının vacibliyini də qeyd edib.

Onun sözlərinə görə, məktəbli oğlan və qızlar arasında siqaret çəkənlərin sayı artmaqdadır. O, bildirib ki, biz tütün epidemiyasının qarşısını almaq üçün çox işləməliyik.

ÜST-ün tədqiqatlarına görə, təkcə Gürcüstanda hər il 11 min adam, daha doğrusu hər gün 30 nəfər tütündən istifadə etdiyinə görə ölür.

HAQQIN SÖZÜ-SÖZÜN HAQQI.

# Yeni YOL

31 may 2016-cı il
№010 (24)

yeni_yol@mail.ru | İCTİMAİ QƏZET | “იენი იოლი” საზოგადოებრივი გაზეთი | qəzet 17 iyun 2015-ci ildən nəşr olunur

## ANAR RAFİQOĞLU YENİ TAMAŞASI İLƏ TAMAŞAÇILAR QARŞISINA ÇIXDI



Mayın 21-ində Gürcüstanın paytaxtı Tbilisinin Atoneli teatrında gənc aktyor, “Yeni Yol”un əməkdaşı Anar Rafiqoğlunun “Zarafat Kolleksiyası - 3” adlı növbəti stand-up komediya tamaşası baş tutdu. Maraqlı ssenari ilə iki saatdan çox səhnədə qalan aktyor, bu müddət ərzində əyləncəli-tənqidi zarafatları və incə yumorları ilə tamaşaçılara gülüş bəxş etməyi bacardı.

Tamaşaya olan maraq kifayət qədər böyük idi. Paytaxt Tbilisidən və əksər bölgələrdən, müxtəlif yaş qruplarından olan izləyicilərin axınına uğrayan tamaşanın biletləri tamamən satıldığından, bir çox tamaşaçılar tamaşanı ayaqüstə izləmək məcburiyyətində qalmışdı. Tamaşada yenilik və maraqlı an isə Gürcüstanda ilk dəfə azərbaycanlı qadının - stand-up sahəsində ilk addımlarını atan Leyli Hüseynovanın səhnəyə çıxması və ilk səhnə təcrübəsi olmasına baxmayaraq, onun çıxışının tamaşaçılar tərəfindən alqışlarla qarşılanması oldu.

Tamaşanın sonunda isə daha bir ilk baş vermiş, tamaşaçılarla aktyorlar arasında sual-cavab, dialoq formatı baş tutmuş, bu isə tamaşanı izləyənlərin xüsusi marağına səbəb olmuşdur.

Biz də “Yeni Yol” kollektivi olaraq gənc və istedadlı aktyor Anar Rafiqoğluna yeni-yeni yaradıcılıq uğurları arzulayırıq!

## RUSTAVİ TARİX MUZEYİNDƏ AZƏRBAYCANLI RƏSSAMLARIN ƏSƏRLƏRİ DƏ SƏRGİLƏNİB



Mayın 18- də beynəlxalq muzeylər günü ilə bağlı Rustavi tarix muzeyində “Kvemo Kartlinin Mədəni Landşaftı” adlı sərginin açılışı olub. Muzeyin sərgi salonunda Kvemo Kartlidə yaşayan rəssamların əsərləri sərgilənib. Qardabani, Bolnisi, Dmanisi və Rustavini təmsil edən rəssamların əsərləri bu dəfə də sərgiyə gələnlər tərəfindən maraqla qarşılanıb.

“Kvemo Kartlinin Mədəni Landşaftı” adlı sərgidə üç həmyerlimizin – gənc rəssamlar Əli Əliyev, Azər Musaoğlu və Rasim Həsənovun da müxtəlif mövzuda və fərqli janrlarda yaratdıqları rəsm əsərləri sənətsevərlərin ixtiyarına verilib.

Sərginin açılış mərasimində Kvemo Kartli qubernatoru Paata Xizanişvili, həmçinin Qardabani bələdiyyəsinin sədr mwavini Dünyamalı Hacıyev, Qardabani sakrebulosunun müavini Rəfi Orucov iştirak ediblər. Onu da qeyd edək ki,



“Kvemo Kartlinin Mədəni Landşaftı” sərgisi mayın 25-inədək tamaşaçıların üzünə açıq olub.

## GƏNCƏLİ BİRİNCİ SİNİF ŞAGİRDİ ŞAHMAT ÜZRƏ DÜNYA ÇEMPİONU OLUB



Tailandın Patayya şəhərində məktəblilər arasında keçirilən şahmat üzrə dünya birinciliyinə yekun vurulub. Medallar uğurunda 7-17 yaşlı məktəblilər mübarizə aparıblar. Turnirdə Gəncə şahmat məktəbinin yetirməsi, 29 saylı məktəbin birinci sinif şagirdi, yeddi yaşlı Leyla Budaqova da fərqlənənlər arasında olub.

Sonuncu turda qara fiqurlarla oynayan Leyla Budaqova qazaxıstanlı idmançı Altunay Kuzxamkulovaya qalib gələrək, 7,5 xalla 7-17 yaşlı məktəblilər arasında dünya çempionu adına layiq görülüb. Yeri gəlmişkən, Leyla bu yarışmadan iki qızıl medalla qayıdıb. Leyla standart şahmatdan kənar istirahət günü məktəblilər arasında blits-turnirdə (sürətli şahmat) 7 oyunda 6 qələbə qazanaraq, 17 yaşınadək olan idmançılar arasında birinci olub.

## M.F.AXUNDZADƏ ADINA AZƏRBAYCAN MƏDƏNİYYƏTİ MUZEYİNDƏ BEYNƏLXALQ MUZEYLƏR GÜNÜ MÜNASİBƏTİLƏ “MUZEY GECƏSİ” KEÇİRİLİB



Mayın 21-də Gürcüstanın bütün muzeylərində, həmçinin Tbilisidə yerləşən M.F.Axundzadə adına Azərbaycan Mədəniyyəti Muzeyində Beynəlxalq Muzeylər Günü münasibətilə “Muzey gecəsi” keçirilib. Muzeyin birinci, ikinci və üçüncü mərtəbələrində Azərbaycanın qədim mədəniyyət nümunələri – xalçalar, dulusçuluq məmulatları, məişət avadanlığı, musiqi alətləri və rəsm əsərlərindən ibarət maraqlı sərgilər təşkil edilib. Mədəniyyət muzeyinin nəzdində fəaliyyət göstərən xalçaçılıq və rəssamlıq bölmələrinin şagirdləri bacarıqlarını qonaqlara nümayiş etdiriblər. Tbilisidəki “Ceyran” rəqs qrupunun üzvləri, aşıq Nargilə Mehdiyeva, Abşeron rayonu Xırdalan şəhər Uşaq Musiqi Məktəbinin kollektivi muzey gecəsində konsert proqramı ilə çıxış ediblər.

Muzeyin direktoru və tədbirin təşkilatçısı Leyla Əliyeva “YeniYol” ilə söhbəti zamanı gecənin Gürcüstanın mədəniyyət və abidələrin mühafizəsi nazirliyinin təşəbbüsü və dəstəyi ilə keçirildiyini bildirib. “Muzey gecəsi”ndə Azərbaycanın Gürcüstandakı səfirliyinin humanitar və mədəniyyət məsələləri üzrə müşaviri Samirə Ağayeva, mədəniyyət və incəsənət xadimləri, ictimaiyyət nümayəndələri, tələbələr və Tbilisidə yaşayan gənclər iştirak ediblər.

## ƏZİM GEYÇİSAZ EVERESTİ FƏTH ETDİ



Azərbaycanlı Əzim Geyçisaz mayın 19-da planetin ən yüksək zirvəsi – Everesti oksigen maskasından istifadə etmədən fəth edib. Təbrizdə anadan olan və orada da yaşayan Geyçisaz İranın alpinizm yığmasının üzvüdür.

34 yaşlı Əzim Geyçisaz ikinci dəfədir ki, Everestə qalxır. O, birinci dəfə 2005-ci ildə oksigendən istifadə etməklə zirvəyə qalxıb.

2014-cü ilə qədər o, oksigen olmadan 13 səkkiz min metrlik zirvəni fəth edib.

“Dünyada 8000 metrlik 14 dağ zirvəsi var və onlardan 13-nü fəth etmişəm. Lakin mən Everestə əlavə oksigendən istifadə etməklə qalxdım. Yenidən bu zirvəyə əlavə oksigen istifadə etmədən qalxmağa hazıram”, – alpinist bildirib.

O, Bakıdan olan həmkarları ilə birlikdə də ekspedisiyalarda iştirak edib.

İki il qabaq İsrafil Aşurlu və Firuz Dadaşovla birgə Şişapanqma (8013 metr) ekspedisiyasında iştirak edib. Lakin ekspedisiya baş tutmayıb. Belə ki, Əzim Geyçisaz Azərbaycandan olan xəstə yoldaşının enməsinə kömək etmək məqsədilə zirvəyə qalxmaqdan könüllü imtina edib.

## 12 YAŞLI AMERIKALI EYNİ VAXTDA İKİ UNİVERSİTETİN TƏLƏBƏSİ OLDU



Tanishq Abraham 12 yaşında olmasına baxmayaraq, eyni zamanda Kaliforniyanın iki universitetinin tələbəsi adını qazanıb.

Sakramento şəhərinin gənc sakini 10 yaşında məktəbi bitirib, keçən il isə yerli kollecdə üç kiçik mütəxəssis dərəcəsi alıb.

Kaliforniyanın Devis və Santa-Krus universitetləri onu tələbələri kimi görmək istədiklərini bildiriblər. O, hələlik hansı universitetdə təhsil alacağına qərar verməyib. Vunderkind bu universitetlərdən hər birinin öz üstünlüyü olduğunu bildirib.

Universitetlərdən biri onun yaşadığı evdən 20 dəqiqəlik məsafədə yerləşir, digəri isə ona yalnız bir neçə tələbənin mükafatlandırıldığı nüfuzlu təqaüd veriləcəyini bəyan edib.

Bu, necə olub? Valideynləri onun informasiyanı tez qavradığını və artıq 4 yaşında Mens – yüksək intellektli insanlar təşkilatının üzvü olduğunu bildiriblər.

"CBS Sacramento"ya verdiyi müsahibəsində o, tələbələrin kollektivində seçiləcəyindən qorxmadığını bildirib.

Gənc tələbə deyib: "Kollecdəki təcrübəmdən onları əvvəlcə narahat etdiyimi gördüm. Amma daha sonra onlar mənə alışdılar. Biz sadəcə dost olduq".

Təsisçi:
*“Gürcüstan gənclərinə Yardım və Maarifləndimrə Təşkilatı”*

*Redaktor:*
**Afiq Muxtaroğlu**
*Yayım Direktoru:*
**Hacı Bəkiroğlu**

Ünvan: Qardabani şəh, Kolxoz küç, 4
Tel/ (+995) 595 92 25 70
599 54 12 92
email: yeni_yol@mail.ru

Redaksiyaya gələn əlyazmalar geri qaytarılmır və onlara rəy verilmir.
Müəlliflə redaksiyanın mövqeyi müxtəlif ola bilər.
Qəzet hələlik ictimai əsaslarla yayımlanır və pulsuz paylanır.
Qəzetdə müxtəlif informasiya agentliklərinin xəbərlərindən də istifadə olunur.